# «Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası»nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Aviasiya haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri**

**A. RASİZADƏ**

Bakı şəhəri, 24 aprel 2009-cu il
№ 69

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 aprel tarixli 69
nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması

# Q A Y D A S I

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qayda (bundan sonra - Qayda) "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanının 1.6-cı bəndinin ("Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanununun müvafiq olaraq 9.8-ci maddəsinin ikinci hissəsi) icrası məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qayda Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət qeydiyyatı, zəruri sənədlərin rəsmiləşdirilməsi və verilməsi, habelə sözügedən aerodromların dövlət reyestrindən çıxarılması qaydasını müəyyən edir.

Azərbaycan Respublikasının ərazisini, hava məkanının müdafiəsini və respublikanın müdafiə maraqlarını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisində mövcud olan bütün aerodromlar Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırıldıqdan sonra birgə bazalı aerodrom hesab edilir. Bu aerodromlarda təyyarə və vertolyotlar üçün dayanacaqların, uçuşların təmin edilməsi məqsədi ilə qurğu və vasitələrin yerləşdirilməsinə xüsusi yerlər ayrılır. Mülki aviasiya beynəlxalq hava limanlarının aerodromlarından birgə bazalı aerodrom kimi istifadə olunması barədə qərar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

## 2. ƏSAS ANLAYIŞLAR

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. mülki, dövlət və (və ya) eksperimental aviasiya aerodromu - Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının istifadəsində olan aerodrom;

2.1.2. birgə bazalı aerodrom (bundan sonra - aerodrom) - mülki, dövlət və (və ya) eksperimental aviasiya hava gəmilərinin birgə baza yeri olan aerodrom. Bu aerodromların mülki aviasiya məqsədi ilə istismarı müqavilələr əsasında həyata keçirilir (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi istisna olmaqla) və onlar mülki aerodromlara irəli sürülən tələblərə cavab verməlidir;

2.1.3. uçuş-enmə zolağı - hava gəmilərinin havaya qalxarkən və yerə endikdən sonra qaçışı üçün nəzərdə tutulan aerodromun bir hissəsi;

2.1.4. aerodromların dövlət reyestri - Azərbaycan Respublikasının qeydiyyata alınmış aerodromlarının siyahısından, habelə onları səciyyələndirən məlumatlardan ibarət qeydiyyat sistemi;

2.1.5. aerodromun dövlət qeydiyyatı haqqında sənəd - aerodromun dövlət reyestrinə daxil edildiyini təsdiq edən sənəd;

2.1.6. aerodromun istismarçısı(ları) - aerodromu qanuni əsaslarla istismar və uçuşlar üçün istifadə edən hüquqi şəxs(lər);

2.1.7. müvafiq dövlət orqanları - istifadəsində mülki, dövlət və (və ya) eksperimental aviasiya hava gəmiləri olan Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və s.

## 3. AERODROMLARIN QEYDİYYATI

3.1. Müvafiq dövlət orqanlarının müraciətindən sonra aerodromlar dövlət qeydiyyatına alınmalı və onlar barədə məlumatlar dövlət reyestrinə daxil edilməlidir (yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı mövcud olduqda). Qeydiyyat haqqında müraciətə 15 gün ərzində baxılmalıdır. Bu müddətdə dövlət qeydiyyatına alınmasından imtina barədə cavab verilmədikdə, həmin aerodrom dövlət qeydiyyatına alınmış hesab olunur. Bu halda Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası (bundan sonra - DMAA) müraciət edənə dövlət qeydiyyatı haqqında sənəd verməlidir.

Dövlət reyestrinin forması 1 nömrəli əlavədə verilir.

3.2. Aerodromların birgə bazalı statusunun alınmasına (və yaxud zərurət yarandıqda - ləğvinə) dair Azərbaycan Respublikasının Nazirlər Kabinetinə yazılı surətdə müraciət edilməsi və dövlət reyestrinin aparılması DMAA-ya həvalə olunur.

3.3. Aerodrom dövlət reyestrinə aşağıdakılar əsasında daxil edilir:

- 2 nömrəli əlavəyə uyğun tərtib edilmiş ərizə;
- aerodromun formulyarı;
- aerodroma sahibliyi təsdiq edən sənədin surəti;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının surəti.

3.4. Aerodromun sahibi dövlət reyestrinə daxil edilən aerodroma dair məlumatların dəyişməsi barədə DMAA-ya dərhal xəbər verməlidir.

3.5. Dövlət reyestrinə daxil edilən hər bir aerodrom üçün 3 nömrəli əlavəyə uyğun tərtib edilmiş qeydiyyat haqqında müvafiq sənəd verilir.

Bu sənəd aerodromun dövlət qeydiyyatı faktını təsdiq edir.

## 4. QEYDİYYAT HAQQINDA SƏNƏDLƏRİN DUBLİKATININ VERİLMƏSİ

Qeydiyyat haqqında sənəd itirildikdə, dublikat aşağıdakılar əsasında verilir:

- sahibin 4 nömrəli əlavəyə uyğun tərtib edilmiş ərizəsi;
- itirilmənin səbəblərinin xidməti araşdırılması materiallarına dair rəy. Qeydiyyat haqqında sənəd blankının üzərində "Dublikat" sözü yazılmalıdır.

## 5. AERODROMUN DÖVLƏT REYESTRİNDƏN ÇIXARILMASI

5.1. Zərurət yarandıqda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən müəyyən edilmiş aerodromun birgə bazalı kimi istismarı dayandırılır. Belə olan halda bu aerodromun dövlət qeydiyyatına alınması ilə bağlı sənəd öz qüvvəsini itirir və onun haqqında məlumatlar birgə bazalı aerodromların dövlət reyestrindən çıxarılması üçün DMAA-ya qaytarılır.

5.2. Aerodromun birgə bazalı statusu ləğv edilərkən istismarçı (istismarçılar) DMAA-ya aşağıdakı sənədləri təqdim edir:

- 5 nömrəli əlavəyə uyğun tərtib edilmiş ərizə;
- aerodromun birgə bazalı statusunun ləğvinə dair qərarın əks olunduğu aktın surəti;
- qeydiyyat haqqında sənəd.

5.3. Aerodrom birgə bazalı aerodromların dövlət reyestrindən çıxarıldıqda, onun dövlət reyestrindən çıxarılması haqqında 6 nömrəli əlavəyə uyğun tərtib edilmiş sənəd verilir. Bu sənədin nömrəsi qeydiyyat haqqında sənədin nömrəsinə uyğun olmalıdır.

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**1 nömrəli əlavə**

Azərbaycan Respublikasının
birgə bazalı aerodromlarının
dövlət reyestrinin forması

Azərbaycan Respublikasının
Dövlət Mülki Aviasiya Administrasiyası

Format
260x340

Arxa səhifənin sol tərəfi

Aerodrom ______________________________
(adı)

| Aerodromun dərəcəsi | Aerodromun meteominimumu | İstismar olunan HG-nin növü | Uçuş-enmə zolağı | | | Aerodromun sahibi | Hava limanı istismarçısı |
|---|---|---|---|---|---|---|---|
| | | | miqdar | örtüyün növü | enmənin maqnit kursu | | |

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrindən çıxarılması haqqında sənəd
_______________________________________________________________________________
(nömrəsi və verilmə tarixi)

Arxa səhifənin sağ tərəfi

Aerodromun yeri _________________________________________________________
_________________________________________________________

| Dövlət qeydiyyatı haqqında sənəd (nömrəsi və verilmə tarixi) | Aerodromun istismara buraxılması (əmrin nömrəsi və tarixi) | Mülki aerodromların yararlıq normalarına uyğunluğu haqqında sertifikat | | | | Aerodromun ICAO dərəcələri üzrə istismar tələblərinə uyğunluğu haqqında sertifikat | | | | Qeydiyyat məlumatlarında dəyişikliklərin edilməsi üçün əsas |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | nömrə | verilmə tarixi | kim tərəfindən verilib | qüvvədə olma müddəti | nömrə | verilmə tarixi | kim tərəfindən verilib | qüvvədə olma müddəti | |

Qeyd:
1. Birgə bazalı aerodromların dövlət reyestrinin vərəqləri nömrələnir, qaytanlanır, DMAA-nın səlahiyyətli orqanında qeyri-məxfi kargüzarlığın aparılmasına görə məsul şəxs tərəfindən təsdiq edilir və onların üzərinə Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvir olunduğu möhür vurulur.
2. Birgə bazalı aerodromların dövlət reyestri DMAA-nın qeyri-məxfi kargüzarlığında qeyd edilir.

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**2 nömrəli əlavə**

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının
dövlət reyestrində qeydiyyata alınmasına dair ərizənin forması

Azərbaycan Respublikasının
Dövlət Mülki Aviasiya Administrasiyası

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının
dövlət reyestrində qeydiyyata alınmasına dair

ƏRİZƏ

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
____________________________________________________________yerləşən

__________________________________________________________məxsus olan
(sahibi və ünvanı)
______________________________________________________________________
______________________________________________________________________
___________________________________________________istismara verilmiş

______________________________________________________________________
(aerodromun adı)

Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrinə daxil etməyinizi və ona dövlət qeydiyyatı haqqında sənəd verməyinizi xahiş edirəm.

Aerodrom və istismarçını səciyyələndirən əlavə məlumatlar:

1. Aerodromun dərəcəsi____________________________________________
2. Uçuş-enmə zolağı (ölçüləri, qalınlığı, örtüyün növü, hansı növ hava gəmilərinin istismarı üçün yararlıdır)__________________________

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

3. İstismarçı və onun ünvanı_____________________________________

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

_________________ __________________ _______________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)

M.Y.

«___»___________________20____il.

Rəy:__________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

_________________ __________________ _______________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)

M.Y.
«___»___________________20____il

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**3 nömrəli əlavə**

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının
dövlət reyestrində qeydiyyatı haqqında Sənədin forması

Format
190x145

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT MÜLKİ AVİASİYA ADMİNİSTRASİYASI

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının
dövlət reyestrində qeydiyyatı haqqında

Sənəd
№ _____

Aerodrom ______________________________________________________________
Aerodromun sinfi
______________________________________________________________
Aerodromun yeri
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

Aerodromun sahibi
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

Sahibin ünvanı
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

Bununla təsdiq edilir ki, yuxarıda qeyd edilən aerodrom Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrinə daxil edilmişdir.

____________________ ________________
(verilmə tarixi) (imza)
M.Y.

Qeyd. Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrində qeydiyyatı haqqında Sənəd DMAA-nın üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvir olunduğu möhürü ilə təsdiq edilir.

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**4 nömrəli əlavə**

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrində qeydiyyatı haqqında Sənədin dublikatının verilməsinə dair ərizənin forması

Azərbaycan Respublikasının
Dövlət Mülki Aviasiya Administrasiyası

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrində qeydiyyatı haqqında Sənədin dublikatının verilməsinə dair

ƏRİZƏ

____________________________________________________________
____________________________________________________________
___________________________________________________ilə əlaqədar

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
_____________________________________________________yerləşən
_______________________________________________________məxsus
(sahib və onun ünvanı)

____________________________________________________________
(aerodromun adı)

“___” _________ 20___ il tarixdə verilmiş Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrində qeydiyyatı haqqında Sənədin dublikatını verməyinizi xahiş edirəm.

______________ ________________ ___________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)
M.Y.

"_____" ____________ 20___ il.

Rəy: ________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

______________ ________________ ___________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)
M.Y.

"______" ____________ 20___ il.

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**5 nömrəli əlavə**

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının
dövlət reyestrindən çıxarılması haqqında ərizənin forması

Azərbaycan Respublikasının
Dövlət Mülki Aviasiya Administrasiyası

Aerodromun Azərbaycan Respublikasının birgə bazalı
aerodromlarının dövlət reyestrindən çıxarılması haqqında

ƏRİZƏ

_______________________________________________________________________
_______________________________________________________________________
__________________________________________________________ilə əlaqədar

_______________________________________________________________________
_______________________________________________________________________
_______________________________________________________________________
______________________________________________________________yerləşən
________________________________________________________________məxsus
(sahib və onun ünvanı)
_____________________________________ Azərbaycan Respublikasının birgə
(aerodromun adı)
bazalı aerodromlarının dövlət reyestrindən çıxarmağınızı xahiş edirəm.

“___” _________ 20____ il tarixdə verilmiş dövlət qeydiyyatı haqqında
Sənəd.

_________________ ___________________ _______________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)

M.Y.

"__" ____________ 20__ il.

Rəy: _________________________________________________________________
_______________________________________________________________________
_______________________________________________________________________
_______________________________________________________________________

__________________ ____________________ _______________________
(vəzifəsi) (imzası) (inisialları, soyadı)
M.Y.

"__" ____________ 20__ il.

“Birgə bazalı aerodromların
dövlət qeydiyyatına alınması Qaydası”na
**6 nömrəli əlavə**

Aerodromun birgə bazalı aerodromların
dövlət reyestrindən çıxarılması haqqında

Sənədin forması

Format
190x145

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT MÜLKİ AVİASİYA ADMİNİSTRASİYASI

Aerodromun birgə bazalı aerodromların
dövlət reyestrindən çıxarılması haqqında

Sənəd
№ ___________

Aerodrom ________________________________________________________________________

Aerodromun sinfi
________________________________________________________________________

Aerodromun yeri
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Aerodromun sahibi
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Sahibin ünvanı
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

Bununla təsdiq edilir ki, yuxarıda qeyd edilən aerodrom Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrindən çıxarılmışdır.

______________________ ________________
(verilmə tarixi) (imza)
M.Y.

Qeyd. Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrindən çıxarılması haqqında sənəd DMAA-nın üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvir olunduğu möhürü ilə təsdiq edilir.